

# İlham Əliyevin sülh diplomatiyası

## Cənubi Qafqazda təhlükəsizliyin və gələcək uğurların təminatı

**İkinci Qarabağ müharibəsindəki böyük Zəfərdən sonra Cənubi Qafqazda yaranan reallıqları məharətlə dəyərləndirən İlham Əliyev irəli sürdüyü qlobal təşəbbüslərlə, həyata keçirdiyi mütərəqqi islahatlarla Azərbaycanın gələcək uğurlarının konturlarını müəyyənləşdirir. Məhz İlham Əliyevin təşəbbüsü ilə reallaşan qlobal enerji layihələri sayəsində Azərbaycanın beynəlxalq siyasi çəkisi artıb.**

Dünyanın geosiyasi və geoiqtisadi gündəmini düzgün qiymətləndirən ən islahatçı Prezident verdiyi bütün sözlərə, vədlərə daim sadiqliyi ilə Azərbaycana dünyada ən etibarlı tərəfdaş statusunu qazandıraraq nüfuzunu yüksəldib. Yəni İlham Əliyevin yürütdüyü xarici siyasət nəticəsində Azərbaycan istər beynəlxalq təşkilatlar, forumlar, istərsə də ayrı-ayrı ölkələr səviyyəsində inanılmış və güvənli bir tərəfdaş kimi qəbul edilir.

Hazırda Azərbaycan Avropanın enerji təminatında açar rolunu oynayan ölkələrdən biri kimi qəbul olunur. Bu, ölkə sərhədlərindən kənarda, özü də ən yüksək səviyyələrdə etiraf olunur. Prosesi dəyərləndirən İlham Əliyev deyir ki, Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaş ölkələrin dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişib. Azərbaycan tərəfdaşları ilə birgə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəmərini, habelə digər enerji layihələrini reallaşdırmaqla yeni rekordlara imza atıb. "Əsrin müqaviləsi" ilə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan yeni neft strategiyasını uğurla davam etdirən İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən layihələr, əlbəttə ki, Azərbaycanın gələcək uğurlarının zəmanətidir. Azərbaycanın iştirakı olmadan regionda hansısa bir qlobal layihənin həyata keçirilməsi mümkünsüzdür.

Bütün bunlar İlham Əliyevin enerji diplomatiyasının uğurla həyata keçirilməsinin bariz təcəssümüdür. Bu diplomatiya Azərbaycanın iqtisadi potensialını getdikcə daha da gücləndirir və əldə edilən gəlirlərin iqtisadiyyatın qeyri-neft sektoruna yönəldilməsinə real imkan yaradır.

# İlham Əliyevin sülh diplomatiyası

## Cənubi Qafqazda təhlükəsizliyin və gələcək uğurların təminatı

*Əvvəli 1-ci səh.*

Bu gün İlham Əliyevin digər bir missiyası İkinci Qarabağ müharibəsinin yaratdığı reallıqlara uyğun siyasət həyata keçirmək və bölgədə sülhün təmin olunması üçün əməli işlər görməkdir. Baş verən proseslər göstərir ki, Azərbaycan Prezidenti 3 ilə yaxındır bütün təşəbbüslərini bu prosesə yönəldib. 30 il ərzində ermənilər tərəfindən darmadağın edilmiş Qarabağ və Şərqi Zəngəzuru bərpa edən İlham Əliyev həm də Ermənistanla sülh sazişinin imzalanması üçün çox mütərəqqi addımlar atır, məğlub ölkəyə, eləcə də Qarabağın erməni sakinlərinə xoşniyyətli təkliflərini irəli sürür.




İlham Əliyev deyir ki, əgər Ermənistan bölgədə sülhün bərqərar olmasını istəyirsə, bu, baş verəcək. Çünki Azərbaycan bu prosesdə sözünü deyib və hər zamankı kimi ona sadiqliyini göstərmək iqtidarındadır. Amma ötən müddət ərzində Ermənistan rəhbərliyi bu istiqamətdə hansısa bir müsbət addım atmayıb. Hayastan rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünü tanısa da, Qarabağın Azərbaycanın ərazisi olduğunu dəfələrlə etiraf etsə də, bunların kağız üzərində əksini tapması üçün real addımlar atmır. Əvəzində isə bu ölkənin baş naziri Nikol Paşinyan siyasi manipulyasiya ilə məşğul olur. Bu azmış kimi beynəlxalq təşkilatları da hər vəchlə aldatmağa çalışır ki, guya sülh müqaviləsi imzalanacağı təqdirdə Azərbaycan bu ölkəyə qarşı əlavə ərazi iddiaları qaldıracaq. Amma İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycanın belə bir niyyəti yoxdur.

Azərbaycan Prezidentinin yürütdüyü siyasətin prioriteti regionda ilk növbədə sülhün təminatıdır. Çünki sülh olmadan Qafqazda təhlükəsizliyin təminatı sual altında qalacaq. Bu da ilk növbədə qlobal iqtisadi layihələrin reallaşmasına, bölgənin nəqliyyat-kommunikasiya imkanlarının genişlənməsinə əngəl yaradacaq. Eyni zamanda xarici investorları regiona sərmayə yatırmaq fikrindən daşındıracaq. Yox, əgər sülh müqaviləsi imzalanarsa, bundan ilk növbədə yararlanan elə Ermənistan olacaq. İndiyədək regionda həyata keçirilən qlobal layihələrdən kənarda saxlanılan Hayastan bu prosesə cəlb edilməklə ağır durumda olan iqtisadiyyatını dirçəldə bilər. Ölkənin qazanacağı iqtisadi dividendlər müflis durumda yaşayan ermənilərin həyat səviyyəsinin yaxşılaşdırılmasına real imkanlar açacaq.

Sülh müqaviləsi imzalanacağı təqdirdə regionda yeni nəqliyyat-kommunikasiya infrastrukturları yaranacaq. Kommunikasiya xətlərinin reallaşması unikal əməkdaşlıq imkanlarının formalaşması deməkdir. Bu, Azərbaycanın həm tranzit, həm də ixracatçı ölkə kimi mövqeyini möhkəmləndirəcək, Şərqdən Qərbə, Asiyadan Avropaya doğru geniş coğrafiyada ölkəmizin geosiyasi nüfuz zonasının, işbirliyi və inteqrasiya dairəsinin genişlənməsini təmin edəcək.

Nəzərdə tutulan layihələrdən biri də Rusiyadan Ermənistana dəmir yolu xəttinin çəkilməsidir. Heç vaxt belə layihə mövcud olmayıb. Azərbaycanın razılığı əsasında çəkiləcək dəmir yolu xətti Hayastanın iqtisadiyyatına müsbət təsir göstərəcək.

Bütün bunlar bir daha göstərir ki, İlham Əliyevin sülh missiyası həm Azərbaycan, həm də Ermənistan üçün siyasi və iqtisadi uğurlar vəd edir. Beynəlxalq birliyin, regionda marağı olan dövlətlərin də istəyi Cənubi Qafqazda təhlükəsizliyin təminatıdır.

Yox, əgər Ermənistan sülh istəmirsə, bu, məğlub ölkə üçün yaxşı nəyisə vəd etmir. Bunu İlham Əliyev 49 ölkədən 150 xarici qonağın, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyinin, 12 beynəlxalq təşkilat və media qurumunun iştirak etdiyi I Şuşa Qlobal Forumunda dünyaya bir daha bəyan etmişdi. Qalib Ali Baş Komandan kimi Ermənistana qurtuluş yolu göstərən İlham Əliyev bildirmişdi ki, Ermənistan ölkəmizə qarşı hər hansı ərazi iddialarından imtina etsə, sülh sazişinin ilin sonunadək imzalanması mümkündür. Sülhün olmaması bölgə üçün heç də yaxşı ssenari deyil. Çünki sülh müqaviləsi imzalanmayacağı təqdirdə regionda sabitliyi, təhlükəsizliyi təmin etmək olmayacaq və bu da gələcəkdə çətinliklər yaradacaq. Eyni zamanda böyük investorların regiona marağını zəiflədəcək: "İndi mən yenə də deyirəm: gəlin bu reallıqları qəbul edin, bu reallıqların dəyişməsi baş verərsə, bu, yalnız və yalnız nə Ermənistan, nə də Qarabağın erməni azlığı üçün yaxşı olmayacaq".

Göründüyü kimi, Ermənistanla münasibətlərin normallaşması və sülhə nail olunması artıq bu ölkənin özünü necə aparmasından asılıdır. İlham Əliyev bununla bağlı şərtlərini də təqdim edib. Yalnız həmin şərtlərin yerinə yetiriləcəyi təqdirdə sülhə nail olmaq mümkündür. Əks təqdirdə itirən və uduzan yenə də Ermənistan olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 15 avqust.- S.1; 3.